


AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

19 yanvar 2023-cü il
cümə axşamı

1933-cü ildən çıxır
№ 3 (3617)

# AZƏRBAYCAN ƏRƏB DÜNYASININ DA ƏN ETİBARLI TƏRƏFDAŞIDIR

Azərbaycanın uğurlu xarici siyasətinin nəticəsi olaraq ölkəmizin müsəlman dünyası, o cümlədən ərəb dövlətləri ilə əlaqələri son dövrlərdə daha da inkişaf edib, münasibətlərin dinamikası yeni mərhələyə qədəm qoyub. Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinin dəvəti ilə Azərbaycan Prezidenti İlham Əliyevin yanvarın 16-da Əbu-Dabi Dayanıqlılıq Həftəsinin rəsmi açılış mərasimində iştirakı da bu ölkənin timsalında ərəb dünyasının ölkəmizə və onun rəhbərinə olan yüksək ehtiramının göstəricisidir.

BƏƏ-yə işgüzar səfər zamanı Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanla görüşdə Prezident İlham Əliyev Azərbaycanla BƏƏ-nin siyasi, iqtisadi, təhlükəsizlik və digər sahələrdə sıx əməkdaşlıq etdiyini bildirib, əlaqələrin daha da genişləndirilməsinin vacibliyini vurğulayıb.




Yeri gəlmişkən, xatırladaq ki, keçən ay Fransanın BMT Təhlükəsizlik Şurasında Azərbaycana qarşı qəbul etdirməyə çalışdığı sənədin əleyhinə çıxanlardan biri də BƏƏ-dir. Görüşdə bu məsələyə də toxunan dövlətimizin başçısı BMT TŞ-də Cənubi Qafqaz regionuna aid müzakirələrdə BƏƏ-nin Azərbaycana göstərdiyi dəstəyi yüksək qiymətləndirdiyini, bunu dostluğun və qardaşlığın nümunəsi kimi dəyərləndirdiyini qeyd edib.

Prezident İlham Əliyevin dəvət olunduğu Əbu-Dabi Dayanıqlılıq Həftəsi planetimizin gələcəyində payı olan dövlət və hökumət başçılarını, siyasətçiləri, sənaye liderlərini, sərmayəçiləri, iş adamlarını və gəncləri aktual məsələlərin müzakirəsi üçün bir araya gətirib. Dünyanın 150 ölkəsindən 30 minədək nümayəndənin iştirak etdiyi mötəbər beynəlxalq tədbirə Prezident İlham Əliyevin dəvət olunması sürətlə inkişaf edərək mühüm beynəlxalq layihələrin təşəbbüskarına çevrilən ölkəmizin dünya miqyasında artan nüfuzunun bariz nümunəsidir.

Zəngin neft-qaz potensialı ilə Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan Azərbaycan Prezident İlham Əliyevin uğurlu enerji siyasəti nəticəsində bu sahədə imkanlarını daha da şaxələndirir. Hazırda enerji sahəsində ölkəmizin prioritetlərindən biri bərpaolunan enerji ilə bağlı yeni layihələrin həyata keçirilməsidir. Artıq bu sahədə Azərbaycanla BƏƏ arasında real əməkdaşlıq mövcuddur. Belə ki, ötən il təməli qoyulmuş "Qaradağ" Günəş-Elektrik Stansiyasını bu ölkənin "Masdar" şirkəti inşa edir.

## NAZİR VİLAYƏT EYVAZOV: "POLİS VƏTƏNDAŞIN GÜVƏN YERİDİR..."

Yanvarın 13-də Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun rəhbərliyi ilə DİN-in Əlahiddə Çevik Polis Alayında 2022-ci ildə görülmüş işlərin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş əməliyyat müşavirəsi keçirilib.

Tədbirdə çıxış edən nazir V.Eyvazov ölkədə mövcud olan sabitliyin və təhlükəsizlik şəraitinin daha da möhkəmləndiyini, ictimai asayişin ötən ildə də etibarlı qorunduğunu, əldə edilən müsbət nəticələrdə Alayın şəxsi heyətinin də böyük əməyi olduğunu diqqətə çatdırıb. Bununla belə nazir xidmətdə müəyyən nöqsan və çatışmazlıqların da mövcudluğunu qeyd edərək, onların tezliklə aradan qaldırılmasını tələb edib.



Sonra Alay komandiri, polis general-mayoru Səhlab Bağırov hesabat dövrünün yekunları və qarşıda duran vəzifələr barədə çıxış edərək görülən işlərin nəticələri ilə bağlı məruzə edib.

Müşavirəyə yekun vuran daxili işlər naziri xidməti vəzifələrin uğurla yerinə yetirilməsi üçün ölkə rəhbərliyinin tapşırığına əsasən hər cür şəraitin yaradıldığını, şəxsi heyətin hərtərəfli dövlət qayğısı ilə əhatə olunduğunu nəzərə çatdırıb.



Polisin insanların güvən yeri olduğunu vurğulayan nazir V.Eyvazov hər bir əməkdaşın qanun çərçivəsində hərəkət edərək insanların köməyinə çatmasını, onların həyati problemlərinin həllinə yardımçı olmasını, müraciətlərinə həssaslıqla yanaşmasını, habelə, vətəndaşlarla ünsiyyətdə nəzakətli davranmalarını tələb edib. O, əmin olduğunu bildirib ki, Alayın şəxsi heyəti qarşıya qoyulan tapşırıqları bundan sonra da əzmlə yerinə yetirəcək, göstərilən etimadı sədaqətli xidməti ilə doğruldacaqdır.

## Rəsmi xronika

***Dövlətimizin başçısı yanvarın 15-də Gürcüstan xalqının böyük oğlu, görkəmli müğənni, aktyor və rejissor Vaxtanq Kikabidzenin vəfatı ilə əlaqədar doğmalarına və yaxınlarına başsağlığı teleqramı ünvanlayıb.***

***Yanvarın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dünya İqtisadi Forumunun illik toplantısında iştirak etmək üçün İsveçrə Konfederasiyasına səfəri başlayıb. Həmin gün Davosda dövlətimizin başçısı Niderlandın "Damen Shipyards Group" şirkətinin icraçı direktoru və səhmdarı Arnout Damen, "CISCO" şirkətinin qlobal innovasiyalar üzrə vitse-prezidenti Qay Didrix və "Fortescue Future Industries" şirkətinin sədri Endrü Forest ilə görüşüb.***

## VƏTƏNDAŞ QƏBULU

Qəbələ, Şəki, Balakən, Qax, Oğuz, Zaqatala



Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik cənab Vilayət Eyvazov tərəfindən cari il yanvar ayının 26-da Qəbələ Rayon Polis Şöbəsinin inzibati binasında Şəki, Balakən, Qax, Oğuz, Zaqatala və Qəbələ şəhər və rayonlarının sakinlərinin qəbulu keçiriləcək.

Qəbula yazılmaq istəyən vətəndaşlar Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı 25.01.2023-cü il tarixədək yaşadıqları ərazinin polis orqanına, habelə DİN-in mia.gov.az internet saytı vasitəsilə və sosial şəbəkələrdəki səhifələrinə müraciət edə bilərlər.

Qəbula gələnlərdən şəxsiyyət vəsiqəsi tələb olunur.

# Əməliyyat müşavirəsi keçirildi

Yanvarın 18-də Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun iştirakı ilə Bakı Şəhər Baş Polis İdarəsində 2022-ci ilin yekunlarına həsr olunmuş geniş əməliyyat müşavirəsi keçirilib.

Nazir V.Eyvazov 2022-ci ildə paytaxtın polis orqanlarının cinayətkarlıqla mübarizə və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsindəki



xidməti fəaliyyətini ümumən müsbət qiymətləndirib. Bakı şəhər BPİ-nin, eləcə də onun aidiyyəti struktur qurumlarının və rayon polis idarələrinin rəhbər heyətindən 2023-cü ildə xidməti fəaliyyətdə əsas diqqəti şəxsi heyət arasında nizam-intizamın möhkəmləndirilməsinə, cinayətkarlığın və digər hüquqazidd əməllərin qarşısının qətiyyətlə alınmasına, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı qorunmasına, ən əsası isə vətəndaş məmnunluğunun yüksək səviyyədə təmin olunmasına yönəltməyi tələb edib.

Sonra Bakı Şəhər Baş Polis İdarəsinin rəisi, polis general-mayoru Əkbər İsmayılov hesabat dövrünün yekunları və qarşıda duran vəzifələr barədə məruzə ilə çıxış edib.

Məruzə ətrafında çıxış edən paytaxtın rayon polis idarələrinin rəisləri görülən işlərdən, əldə olunan nəticələrdən, eyni zamanda, xidməti fəaliyyətdə yol verilən nöqsan və çatışmazlıqların aradan qaldırılması ilə bağlı planlaşdırılan tədbirlər barədə hesabat veriblər.




Əməliyyat müşavirəsinə yekun vuran nazir vətəndaşların mənzil başına rahat və təhlükəsiz çatmaları üçün aidiyyəti orqanlarla birlikdə paytaxtda nəqliyyat sıxlığının və tıxacların qarşısının alınmasının, yolların kənarında qeyri-qanuni saxlanılan və nəqliyyatın normal axınına maneçilik törədən avtomobillərin kənarlaşdırılmasının, eləcə də sərnişindaşıma sahəsində olan nöqsanların aradan qaldırılmasının vacibliyinə toxunub.

Ümumbəşəri bəlaya çevrilmiş narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizəyə diqqət çəkən nazir V.Eyvazov antinarkotik təbliğatın daha da gücləndirilməsi, bu məqsədlə təhsil müəssisələrində gənclərlə mütəmadi görüşlərin keçirilməsinin əhəmiyyətindən danışıb, narkotiklərlə mübarizədə vətəndaşların da polisə dəstək olduğunu qeyd edərək onlara təşəkkürünü bildirib.

Qanunla müəyyən edilən vəzifələrin yüksək səviyyədə icrası üçün lazımi şəraitin yaradıldığını, daxili işlər orqan və hissələrinin dövlət qayğısı ilə hərtərəfli əhatə olunduğunu məmnunluqla vurğulayan general-polkovnik V.Eyvazov əmin olduğunu bildirib ki, bu ali diqqətə və etimada cavab olaraq Bakı şəhər polis qarnizonunun şəxsi heyəti xidməti borcunu bundan sonra da layiqincə yerinə yetirəcəkdir.

# Müstəqilliyə yol açan gecə...

O gecə - 1990-cı ilin 19-dan 20-nə keçən gecə sovet hərb maşınının Azərbaycan xalqına qarşı həyata keçirdiyi hərbi təcavüz insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən idi.

Həmin gün 117-si azərbaycanlı, 6-sı rus, 3-ü tatar, 3-ü yəhudi olmaqla 131 nəfər öldürüldü, 744 nəfər ağır xəsarət aldı, 4 nəfər itkin düşdü, 400 nəfər həbs edildi. Yanvarın 25-də isə Sovet qoşunları fövqəladə vəziyyət elan olunmayan rayonlara - Neftçalaya, bir gün sonra Lənkərana yeridildi, nəticədə hər iki rayonda dinc insanlar qətlə yetirildilər. Beləliklə, sovet qoşunlarının Bakıya və Azərbaycanın digər rayonlarına hərbi müdaxiləsi nəticəsində öldürülən insanların sayı 147-yə çatdı.




Qeyd edək ki, həmin o müdhiş gecədə 5 həmkarımız da şəhid olub.

O zaman ümummilli lider Heydər Əliyev bütün çətinliklərə baxmayaraq 1990-cı il yanvarın 21-də siyasi iradə nümayiş etdirərək Moskvadakı Azərbaycan nümayəndəliyinə gələrək SSRİ rəhbərliyinin törətdiyi bu cinayəti qətiyyətlə ittiham edib bəyanatla çıxış etdi. 1993-cü ildə isə ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Azərbaycanda müstəqil dövlətçilik ideyalarının bərqərar olmasına şərait yaratdı. Bundan sonra qanlı Yanvar faciəsinə dövlət səviyyəsində də tam siyasi-hüquqi qiymət verildi.

1990-cı ilin yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Həmin müdhiş gecədə həlak olan vətən oğullarımız, qızlarımız Azərbaycanın tarixinə parlaq səhifə yazaraq xalqın milli azadlığı, müstəqilliyi üçün yol açdılar. 20 Yanvar faciəsi müstəqil Azərbaycan dövlətinin tarixinə, həm də xalqımızın şərəf və qəhrəmanlıq səhifəsi kimi yazıldı.

*Ruhiyyə Əliyeva*

# YENİ MEDAL TƏSİS EDİLİB

Prezident İlham Əliyev “Daxili işlər orqanlarında xidmətdə fərqlənməyə görə” Azərbaycan Respublikası medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” qanunu təsdiqləyib.




“Daxili işlər orqanlarında xidmətdə fərqlənməyə görə” medalı ilə cinayətkarlığa qarşı mübarizədə, ictimai qaydanın qorunmasında və ictimai təhlükəsizliyin təmin edilməsində xüsusi fərqlənən daxili işlər orqanlarında vəzifələrini nümunəvi yerinə yetirən, xidmətdə yüksək nəticələr əldə edən Azərbaycan daxili işlər orqanlarının xüsusi rütbəsi olan əməkdaşları təltif ediləcəklər.

Medal döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medallarından sonra taxılır.

# ÖTƏN İLİN HESABATI

Polis veteranları cinayətkarlığa qarşı peşəkar mübarizədə əldə etdikləri zəngin təcrübəni gənc əməkdaşlarla bölüşür, ictimai təhlükəsizliyin təminində, cinayətlərin profilaktikası məqsədi ilə əməli köməklik göstərilməsində bilik və bacarıqlarını əsirgəmirlər.

Eyni zamanda, onlar yeniyetmə və gənclər arasında antinarkotik təbliğatın güclənməsi, dini radikalizmə qarşı mübarizə, azyaşlılar arasında erkən nikah və intihar hallarının qarşısının alınması məqsədilə polis əməkdaşları ilə birgə vətəndaşlarla görüşlər keçirir, hüquqi mövzularda maarifləndirmə işlərinin aparılmasında iştirak edir, gənc nəslin sağlam ruhda yetişməsi üçün böyük səy göstərirlər.Belə ki, veteranlarımız 3682 müəssisədə və ümumtəhsil məktəblərində keçirilən maarifləndirmə tədbirlərində iştirak etmişlər. Ümumilikdə, ötən il ərzində 9967 cinayətin açılmasında onların xüsusi xidməti olmuşdur.

DİN Veteranlar Şurasının sədri, istefada olan polis polkovniki Fərhad Süleymanov bildirir ki, yola saldığımız ildə də gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsi, onların zərərli vərdişlərdən uzaq tutulması istiqamətində profilaktik xarakterli tədbirlərin həyata keçirilməsi başlıca fəaliyyət istiqamətlərindən biri kimi diqqətdə saxlanılıb.

Dövlət başçımızın və DİN rəhbərliyinin veteranlara göstərdiyi xüsusi qayğı və diqqət onları qarşıda duran vəzifələrin yerinə yetirilməsinə daha da ruhlandırır.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# Xatirəsi anılıb

Bu günlərdə Sumqayıtdakı Q.İlyasov adına şəhər 1 saylı tam orta məktəbdə Birinci Qarabağ müharibəsi şəhidi, Azərbaycanın Milli Qəhrəmanı, polis baş serjantı Vasiliy Əliyevin anım mərasimi keçirilib.



Dövlət himnimizin səsləndirilməsi, şəhidlərimizin xatirəsinin bir dəqiqəlik sükutla anılması ilə başlayan tədbirdə rayon ictimaiyyəti, pedaqoji heyət, şagirdlər, mədəniyyət işçiləri, döyüş yoldaşları, ailə üzvləri və Qubadlı RPŞ-nin əməkdaşları iştirak edib.



Tədbirdə şəhidin həyat yoldaşı Sumqayıt ŞPİ-nin Kadr və peşə hazırlığı qrupunun baş inspektoru, polis polkovnik-leytenantı Aygün Əliyeva, Qubadlı RPŞ-nin xidmət üzrə müavini, polis polkovnik-leytenantı İlham Rəsulov və məktəbin direktoru Aynurə Şahmuradova şəhidlik zirvəsinə ucalan V.Əliyevin igidliyindən və şücaətindən danışıb, onun fədakarlığının qəlblərdə əbədi yaşayacağını qeyd ediblər.

Yeri gəlmişkən, polis baş serjantı Vasiliy Əliyev 15 yanvar 1959-cu ildə Qubadlıda doğulub. 1980-ci ildə Qubadlı Rayon Polis Şöbəsində xidmətə başlayıb. 1992-ci il oktyabrın 20-də şəhid olub.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

# FƏDAKARLIQ GÖSTƏRDİLƏR

Sabunçu Rayon Polis İdarəsinin, Əlahiddə Çevik Polis Alayının və Yol Patrul Xidmətinin əməkdaşları Sabunçu rayonu Məhəmmədi kəndində 7 mərtəbəli yaşayış binasının dam örtüyündə baş vermiş yanğının həm qarşısını almağa kömək ediblər, həm də ictimai asayişi və təhlükəsizliyi qoruyublar.



Əlahiddə Çevik Polis Alayının 8-ci Patrul Bölüyünün komandiri, polis polkovnik-leytenantı Məmməd Əliyev və Sabunçu RPİ Post-Patrul Xidməti Bölüyünün komandiri, polis kapitanı Tofiq Əhmədov “Polis”ə bildiriblər ki, əməkdaşlarımız hadisə yerinə vaxt itirmədən çataraq tüstüdən boğulmaq təhlükəsilə üzləşən mənzil sahiblərini təxliyyə ediblər. Onların çevik müdaxiləsi nəticəsində yanğının genişlənməsinin və digər mənzillərə keçməsinin qarşısı qətiyyətlə alınıb.

Polis əməkdaşlarının peşəkarlığı və operativliyi nəticəsində vətəndaşların şəxsi əmlakı mühafizəyə götürülüb, yollarda xüsusi və digər nəqliyyat vasitələrinin maneəsiz hərəkətinə şərait yaradılıb.

Yanğın söndürülüb və binanın qorunması üçün stasionar post qurularaq mühafizəsi təmin olunub.

*R.Vəliyev*

# TƏBİB təlim keçib

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) təşkilatçılığı ilə Daxili İşlər Nazirliyinin əməkdaşlarına “TƏBİB gələnə qədər” adlı ilkin yardım təlimi keçirilib.

“Yeni Klinika” tibb müəssisəsində baş tutan təlimdə DİN Baş Kadrlar İdarəsinin rəis müavini, polis kapitanı Şakir Məmmədov, DİN Tibb İdarəsinin rəis müavini, polis polkovniki Loğman Zeynalov, Bakı şəhər BPİ Kadrlar İdarəsinin rəisi, polis polkovniki Füzuli Allahverdiyev, TƏBİB-in icraçı direktorunun müavini Araz Nəsirov, İnsan resursları departamentinin rəhbəri Günəş Qədimova, eləcə də İlkin səhiyyə və təcili tibbi yardım departamentinin rəhbəri Anar Ağayev, “Yeni Kilinika” tibb müəssisəsinin baş həkimi Cavid Paşayev və digər aidiyyəti şəxslər iştirak ediblər.




Tədbiri giriş sözü ilə açan layihə rəhbəri və moderator Sevda Məmmədzadə iştirakçılara təlimin məqsədi barədə ətraflı məlumat verib. Bildirib ki, baş vermiş istənilən, xüsusən yol-nəqliyyat hadisələri zamanı təcili tibbi yardım briqadası gələnə qədər hesab olunan kritik dövrdə xəsarət almış şəxsə düzgün ilkin yardımın göstərilməsi vacib amildir və göstərilən düzgün ilkin yardım ağırlaşma hallarının qarşısının alınmasında, eyni zamanda, ölüm risklərinin azaldılmasında mühüm rol oynayır. Layihə rəhbəri “Təməl Həyat Dəstəyi” təlimlərinin beynəlxalq dərəcəli mütəxəssislər tərəfindən keçiriləcəyini vurğulayıb.





Bədbəxt hadisələr zamanı müxtəlif dərəcəli bədən xəsarətləri almış vətəndaşlara düzgün ilkin yardımın göstərilməsinin əhəmiyyətini önə çəkən DİN Baş Kadrlar İdarəsinin rəis müavini Ş.Məmmədov sözügedən təlimin şəxsi heyətin bu istiqamətdəki bilik və bacarıqlarının daha da təkmilləşdirilməsinə töhfə verəcəyinə əminliyini ifadə edib.

Tədbirdə digər çıxışçılar tərəfindən layihənin önəmindən və gələcək perspektivlərindən bəhs olunub. O da qeyd edilib ki, hadisə yerinə ilk çatan polis əməkdaşlarının xəsarət almış şəxslərə göstərdiyi düzgün ilkin yardımın nəticəsidir ki, ölüm riskləri xeyli azalıb.

Açılış mərasiminin sonunda iştirakçılarla kollektiv xatirə şəkli çəkdirilib və “TƏBİB gələnə qədər” adlı ilkin yardım təlimlərinə start verilib.

Gündəlik 4 saat olmaqla 2 gün davam edən təlimin sonunda polis əməkdaşlarına müvafiq sertifikatlar verilib.

*Teymur Əlizadə,*
*polis mayoru*

# Unudulmayan ad günü...





Abşeron RPİ Mehdiabad Polis Bölməsinin əməkdaşları sığınacağa yerləşdirdikləri uşağın doğum gününü qeyd ediblər. “Təmiz Dünya” İctimai Birliyinin sığınacağına dekabrın 31-də 10 yaşlı bacısı ilə birlikdə yerləşdirilən Mərziyənin 7 yaşı tamam olub.

Məlumat üçün qeyd edək ki, bacılar səhhətində ciddi problem yaranmış anaların xəstəxanaya yerləşdirilməsindən sonra içki alüdəçisi olan atalarının, yaşlı babalarının yanında qalmağa məcbur olublar. Uşaqların baxımsız, sosial vəziyyətlərinin çətin olması barədə qonşular məlumat verib və polis əməkdaşlarının iştirakı ilə onların yaşayış şəraitinə baxış keçirilib. Rayon İcra Hakimiyyətinin müvafiq komissiyasının azyaşlıların sığınacağa yerləşdirilməsi barədə qərarından sonra isə Polis Bölməsinin inspektoru, polis leytenantı Müseyib Şərifli və sahə rəisi, polis kapitanı Tural Nağıyev bacıları bayram günü sığınacağa təhvil veriblər.

Yanvarın 11-də Mərziyənin doğum günü olduğunu unutmayan polis əməkdaşları sığınacağa gedib tort kəsib, ona yaddaqalan ad günü mərasimi təşkil ediblər. Kiçik bacısının sevincini görən böyük bacının ağlaması duyğulu anlar da yaşadıb.

Həmkarlarımız deyir: "Biz uşaqları evlərindən götürüb sığınacağa aparanda hamı bayram edirdi, yəqin həmin vaxt onların həmyaşıdları da valideynləri ilə süfrə başına yığışmışdılar. İstədik ki, Mərziyənin heç olmasa doğum günü fərqli olsun, onu unutmadığımızı, unutmayacağımızı bilsin".

*R.Mehtiyev*



# Şəhid ailələri ilə görüş keçirilib

20 Yanvar faciəsinin 33-cü ildönümü ərəfəsində Daxili İşlər Nazirliyinin Şəxsi Heyətlə İş İdarəsində həmin qanlı gecədə həyatını itirən polis əməkdaşlarının ailə üzvləri ilə görüş keçirilib.

Şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra tədbiri giriş sözü ilə açan idarə rəisi, polis polkovniki Elçin Məmmədli daxili işlər naziri, general-polkovnik cənab Vilayət Eyvazovun adından şəhid ailələrini salamlayaraq bildirib ki, Azərbaycanın azadlıq və müstəqillik mübarizəsi tarixinə qəhrəmanlıq səhifəsi kimi yazılmış faciə xalqımızın yaddaşına əbədi həkk olunub.

Qeyd edilib ki, həmin müdhiş gecədə öz xidməti borcunu layiqincə yerinə yetirərək əsl qəhrəmanlıq nümunələri göstərən, şəhidlik zirvəsinə ucalan həmkarlarımızın ömür yolu bu gün sıralarımızda olan, xidmətə yeni başlayan gənclərə örnəkdir.

Şəhid ailələri adından çıxış edən Marina Boqdanova və Təranə Bağırova şəhidlərin xatirəsinin dövlətimiz, həmçinin DİN rəhbərliyi tərəfindən daim hörmətlə anıldığını, ailələrinə hər zaman maddi və mənəvi yardımın göstərildiyini vurğulayıblar.

Sonra şəhid ailələrinə DİN rəhbərliyi adından maddi yardım təqdim olunub, onlarla xatirə şəkli çəkilib.

*T.Əlizadə*

# Vətəndaş inspektorun xidmətindən yazır

Nizami rayon sakini Aleksey Mineyev redaksiyamıza yol polisi əməkdaşının xidmətindən razılığını bildirən məktub ünvanlayıb. Bunu ona görə xüsusi olaraq yazırıq ki, adətən, hafizəmizdə sürücülərin yol polisi ilə mübahisə etməsi, qayda pozuntusu törətməsi reallığı ilə razılaşmaması kimi görüntülər qalır. Bu kimi məktublar isə təəssüratları yanlışlıqlardan arındırır.



Qayıdaq məktubun məğzinə. O, yazır ki, səhər tezdən evinin yaxınlığında park etdiyi avtomobilinə əyləşib işə getmək istəyərkən ərazidə xidmət aparan dövlət nömrə nişanı 99-YP-391 olan Yol Patrul Xidmətinin inspektoru ona yaxınlaşıb sənədlərini istəyib: “Sonra əlverişsiz hava durumuna görə maşınımın texniki sazlığına diqqət yetirməli olduğumu izah etdi, dedi ki, avtomobilin təkərləri qış mövsümünə uyğun deyil. Buna görə ictimai nəqliyyat vasitəsindən istifadə etməyi, həm özümü, həm də digər hərəkət iştirakçılarının həyatını təhlükəyə atmamağımı məsləhət gördü”.

Məktub müəllifi qeyd edir ki, polis onu vaxtında xəbərdar etməklə həyatını, sağlamlığını xilas edib, buna görə də inspektora ictimai şəkildə təşəkkür etməyi özünə borc bilib.

**Haqqında bəhs edilən polis baş leytenantı Pərviz Nəsirov** isə deyir ki, qışın soyuğunda da, yayın istisində də yollarda xidmət edən polislərin tək qayəsi sürücülərin həyatını qorumaq, onları gözləyənlərin yanına sağ-salamat çatmalarını təmin etməkdir.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

# Parkda aşkarlanan çanta

Sabunçu rayonunda qadın içərisində xeyli pul olan əl çantasını parkda unudub. Ancaq onun bəxti gətirib, çünki çantanı polis əməkdaşı tapıb.

***Bakıxanov qəsəbəsindəki mərkəzi parkda sahibsiz qalan çantanı aşkar edən Sabunçu RPİ-nin baş inspektoru, polis polkovnik-leytenantı Asif Məlikov onu aktla xidmət etdiyi polis idarəsinə təhvil verib.***



Çantada 530 türk lirəsi, 200 ABŞ dolları, 7 manat, həmçinin müxtəlif banklara məxsus ödəniş kartları və şəxsiyyət vəsiqəsi olub. Araşdırma zamanı məlum olub ki, çantasını itirən şəxs Hədiyyə Cəfərovadır.

***Polis İdarəsinə dəvət olunan H.Cəfərovaya əşyaları təhvil verilib. O, buna görə polis əməkdaşlarına, xüsusən polis polkovnik-leytenantı Asif Məlikova minnətdarlığını bildirib.***

*R.Mehtiyev*

# VƏTƏNƏ xidmət eşqi...

Bir çox halda insanın öz bacarığı, imkanları onu tanıtmağa, dəyərini göstərməyə kifayət etmir, gərək onun özünü də kəşf edənlər olsun. Buna isə "yaxşı adam", "əsl kişi" dediyimiz, başqasının uğuruna sevinən insanlar atır adətən. Azərbaycanda İnterpolun Milli Mərkəzi Bürosunun rəis müavini, polis polkovniki Murədəli Babayev gənc bir əməkdaşın nailiyyətlərindən bəhs edəndə, həm də bu adəti yaşadanlardan olduğunu növbəti dəfə təsdiq edirdi əslində.

Haqqında deyilənlər bizim də marağımızı çəkdi deyə, onu tanımaq və oxucularımıza da tanıtmaq istədik.

İnterpolun Milli Mərkəzi Bürosunda Ümumi Cinayətkarlığa Qarşı Mübarizə Şöbəsinin inspektoru, polis leytenantı Hüseyn Əlizadəni polis peşəsinə Vətənə və xalqına şərəflə xidmət etmək arzusu gətirib. Rusiya Federasiyasında təhsil aldığı illərdə qarşılaşdığı, sorağını aldığı cinayət hadisələri onda doğma ölkəsi ilə həm müqayisə etmək imkanı, həm də buradakı əmin-amanlığın davamlı olmasına öz töhfəsini vermək istəyi yaradıb.




Orta təhsilini Göyçayda bitirəndən sonra Moskva Dövlət Beynəlxalq Əlaqələr Universitetinin beynəlxalq hüquq fakültəsinə qəbul olub, bakalavr pilləsini bitirib. Magistr təhsili almaq üçün hazırlıqlara başlayanda isə Vətəndə Vətən müharibəsi başlayıb.

"Qarabağın azadlığı uğrunda müharibə gedən vaxt mən orada qalıb, heç nə olmamış kimi təhsilimi davam etdirə bilməzdim. Vaxt itirmədən ölkəmə qayıtdım və müharibədə könüllü iştirak etmək üçün müraciət etdim", - deyən həmkarımız sinəsində Vətəni üçün döyünən və yeri gələndə, ali amal uğrunda fəda edə biləcəyi ürək gəzdirdiyini nümayiş etdirib. Bu, eyni zamanda, Birinci Qarabağ müharibəsində xaricdəki rahat həyatını, təhsilini yarıda kəsib ölkəsinə qayıdan və torpaqlarımız uğrunda canından keçən mərd oğullarımızın izinə basılan cəsarətli addım idi. Onların içində o qədər polis əməkdaşı varıydı ki...

Müharibə günlərində tank taborunda çağırışçı kimi müddətli həqiqi hərbi xidmətini başa vuran Hüseyn Əlizadə daxili işlər orqanlarında xidmət etməklə uşaqlıq arzusunu gerçəkləşdirə biləcəyini düşünüb. Təhsil aldığı ixtisas da uyğun gəlincə, beləcə, ötən ilin sentyabrında Büroda xidmətə qəbul olunub.

Gənc olmasına baxmayaraq, onu çox savadlı, bacarıqlı əməkdaş kimi xarakterizə edən şöbənin rəis müavini, polis polkovnik-leytenantı Faiq Fərəcov deyir ki, Hüseyn həm də peşəkar idmançıdır. Özü "Əməkdar idman ustası" olan rəis müavini əməkdaşlarının bir ay bundan öncə idmanın taekvondo növü üzrə respublika ikincisi olmasının sevincini bölüşür: "Onun kimi idmançının Büroda xidmət etməsi bizi də qürurlandırır".

Polis leytenantı Hüseyn Əlizadə uşaqlıqda cüdo ilə başladığı idmanın bir çox növü ilə məşğul olub. Yüngül atletika və üzgüçülükdə yeniyetmələr arasında dəfələrlə fərqlənib. Hətta üzgüçülük çempionatlarına rayondan qatılıb uğur qazanan ilk idmançı olub. O, bununla da regionlarda idmana şərait yoxdur deyənlərə bir növ öz uğuru ilə cavab verib. 2010-cu ildən isə peşəkar şəkildə taekvondo ilə məşğul olur. Deyir ki, indiyədək iştirak etdiyi çempionatlarda yer tutmadığı, fərqlənmədiyi yarış olmayıb.

Hədəfi xidməti vəzifələrini yerinə yetirməklə yanaşı, yarışlarda əldə edəcəyi medalların əyarını qızılla əvəzləməkdir. Bunun üçün Büroda müasir idman zalı var və orada məşqlər üçün rəhbərlik tərəfindən bütün lazımi şərait yaradılıb. Kabinet işində xidmət etməsi onun əllərində qabar izləri yaratmasa da, nailiyyətləri idmançı polis əməkdaşının fiziki hazırlığının dərəcəsini göstərir.

Yaradılan şəraitdən yetərincə bəhrələnmək, şübhəsiz ki, hər bir əməkdaşın öz məharətinə qalıb.

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*

# ƏMƏLLƏRİNƏ HÜQUQİ QİYMƏT VERİLİB

**Vətəndaş Mahir Məmmədov onlayn dələduzluğa məruz qalması ilə bağlı Sumqayıt Şəhər Polis İdarəsinin 3-cü Polis Bölməsinə müraciət edib.**

Bölmə əməkdaşlarının həyata keçirdikləri əməliyyat-texniki tədbirlər nəticəsində M.Məmmədovun etibarından sui-istifadə edərək ona maddi ziyan vuran şəxsin kimliyi müəyyənləşdirilib və o, bölməyə dəvət olunub.

Araşdırma zamanı məlum olub ki, zərərçəkmiş "İnstagram" sosial şəbəkəsində köynək satışını həyata keçirən "ufostor.e" elan saytına sifariş vermək üçün ordakı əlaqə nömrəsilə vatsap ani mesajlaşma proqramında danışıqlar aparıb və 65 manatı təqdim edilən bank kartının hesabına onlayn qaydada ödəyib. Zərərçəkmişə sifarişin üç gün ərzində çatdırılacağı söz verilsə də, sifarişini əldə edə bilməyib. Hətta pulunun qaytarılacağı barədə də yalan vəd verilib.

Sumqayıt ŞPİ 3-cü Polis Bölməsinin baş təhqiqatçısı, polis mayoru Pərviz Babayevdən aldığımız məlumata görə, saxlanılan şəxs dindirilmə zamanı vətəndaşa qarşı dələduzluq törətdiyini etiraf edib və əməlindən səmimi peşmançılıq hissi keçirdiyini bildirib.

M.Məmmədova dəymiş maddi ziyan ödətdirilib, təqsirkar barəsində inzibati tənbeh tədbiri görülüb.

◆◆◆◆◆

**Daha bir uğurlu əməliyyat tədbiri Nizami Rayon Polis İdarəsinin 24-cü Polis Şöbəsi əməkdaşları tərəfindən həyata keçirilib.**

Rayon ərazisində baş vermiş oğurluq hadisəsinin üstü "isti izlər"lə açılıb. Belə ki, sözügedən rayonda fəaliyyət göstərən "Oba" marketlərin birində müdir işləyən Yeganə Mehdiyevanın müraciəti əsasında şöbə əməkdaşları tərəfindən keçirilən əməliyyat-axtarış tədbirləri ilə oğurluğu törətməkdə şübhəli bilinən, işləməyən, Bakı şəhər sakini Rahim Məmmədov saxlanılıb. O, izahatında dostu H.Əhmədovun adına rəsmləşdirilmiş "Mercedes-Benz" markalı yük avtomobili ilə gecə şəhərin müxtəlif yerlərində dəmir və digər metalları topladığını bildirib. 3 yanvar tarixində "Xalqlar Dostluğu" metrostansiyasının yaxınlığında idarə etdiyi yük avtomobiliylə hərəkətdə olarkən adıçəkilən marketin qarşısındakı uzunluğu 2, eni 1 metr, habelə hər birinin 15 manat dəyəri olan 17 ədəd palet diqqətini cəlb edib. Onları maşına yükləyərək Nərimanov rayon Böyükşor qəsəbəsindəki yaşadığı ünvana gətirib.

24-cü Polis Şöbəsi tərəfindən zərərçəkmişə dəymiş ziyanın ödətdirilməsi təmin olunub, R.Məmmədovun əməlinə isə mövcud qanunvericiliyin tələbləri əsasında hüquqi qiymət verilib.

*Teymur Əlizadə,*
*polis mayoru*

# Füzulidə silah-sursat aşkar edilib

Füzuli Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən işğaldan azad edilmiş ərazilərdəki tərk edilmiş hərbi mövqelərdən silah-sursatın və partlayıcı vasitələrin toplanması istiqamətində intensiv tədbirlər davam etdirilir.



Bərdə regional qrupumuzdan verilən məlumata görə, Füzuli Rayon Polis Şöbəsi əməkdaşlarının rayon ərazisində keçirdikləri növbəti tədbirlər zamanı müxtəlif silah-sursat aşkar edilib. Tapılan 45 avtomat, 11 pulemyot, 9 qumbaraatan, 2 tank əleyhinə idarə olunan raket sistemi, 2 snayper tüfəngi, 4 tapança, 1 AQS və lent qutuları, 3 əl qumbarası, 15 partladıcı, 2 gecəgörmə cihazı, 1500 müxtəlif çaplı patron və digər döyüş sursatları aidiyyəti üzrə təhvil verilib.

# Mükafatlı sual rubrikası



O ilk dəfə əsərlərini "Kapitan" imzası ilə yazıb. Sonralar götürdüyü ədəbi təxəllüslə dünya ədəbiyyatında daha çox məşhurluq qazanan bu yazıçının əsl adını çoxları bilmir. Əlyazmalarını 2406-cı ildən tez aşkara çıxarılmamasını vəsiyyət edib. Söhbət kimdən gedir?

**Vatsap:**
**+99455-875-16-39**

# Doğru zamanda doğru cavab




Rubrikamızın növbəti qalibi məlum olub. Sualda oxucularımıza ABŞ-da keçirilmiş prezident seçkilərində zəfər qazandıqdan sonrakı çıxışında "Amerikanı hər şeyin mümkün olduğu yer adlandıran" şəxsin kim olduğunu ünvanlamışdıq. Cavab Barak Obama idi.

Vatsap nömrəmizə göndərilən çoxsaylı versiyaların içində ilk doğru cavabı yazan xanım əməkdaşımız bizdən, rubrikanın şərtinə uyğun olaraq, kitab almaq haqqı qazanıb.

**Beləliklə, qalib oxucumuzu siz də tanıyın - Nəsimi Rayon Mühafizə İdarəsinin kargüzarı, mülki əməkdaş Aygün Hümmətova.**

Aygün xanımla görüşüb Barak Obamanın məlum çıxışının da yer aldığı beynəlxalq bestseller "Dünyanı dəyişən nitqlər" adlı kitabı hədiyyə olaraq təqdim etdik, ona işlərində uğurlar arzuladıq və diqqətli oxucumuz olduğuna görə təşəkkürümüzü bildirdik.

# Müasirliyə, yeniliyə baxış layihəsi

Artıq evinizdən çıxmadan və "Açıq qapı" gününü gözləmədən Polis Akademiyasının ərazisini gəzmək və tədris kompleksi ilə yaxından tanış olmaq imkanı qazanacaqsınız. Müasir panoromik kamera çəkilişi ilə Akademiyadakı Heydər Əliyev Mərkəzini, interaktiv dərs, debat və konfrans otaqlarını, mühazirə zallarını, tədris modulu, atıcılıq tirini, yeməkxananı, tibb hissəsini, idman meydançalarını, kitabxanaları və yataqxanaları görə biləcəksiniz.

Övladının bu elm ocağında təhsil almasını istəyən, lakin onun imkanları ilə tanış olmayan valideynlər, eləcə də abituriyentlər "Virtual Akademiya" vasitəsilə təhsil kompleksi ilə yaxından tanış olacaq, hansı şəraitdə təhsil alacaqlarını dəyərləndirəcəklər.

Maraqlananlar pa.edu.az saytı vasitəsi ilə "Virtual Akademiya"ya daxil ola bilərlər.

# Uşaqları maarifləndirmək vacibdir



Bakı Şəhər Baş Polis İdarəsi Dövlət Yol Polisi İdarəsinin və 1 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin təşkilatçılığı ilə Xətai rayonundakı 261 nömrəli tam orta məktəbdə "Yol hərəkətinə diqqət, həyatımıza verdiyimiz dəyərdir!" mövzusunda maarifləndirici tədbir keçirilib.

Məqsəd uşaqlara yol hərəkəti qaydalarının kiçik yaşlardan aşılanması, eyni zamanda təbliği və onların yeni biliklər əldə etmələridir.

Tədbir uşaqların çıxışları ilə başlayıb. Onlar yol hərəkəti qaydalarına aid şeirlər söyləyib, mahnı, rəqs və səhnəciklərdən ibarət kompozisiya təqdim ediblər.

Bakı şəhər BPİ DYPİ-nin hərəkətin təhlükəsizliyinin təşkili və ictimai qurumlarla əlaqə bölməsinin inspektoru, polis baş leytenantı Pərvanə Muradova böyüklərlə yanaşı, uşaqların da yol hərəkəti qaydalarının öyrənməsinin vacibliyini və buna əməl etmələrini xüsusi vurğulayıb.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

POLIS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR:
HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10000
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 19:30
Qiyməti 40 qəpik